Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 194 (20.848)

17 oktyabr 2013-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

Xalq şairi Məmməd Arazın 80 illiyi münasibətilə keçirilən yubiley tədbirində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun

M Ə R U Z Ə S İ

Yubiley tədbirinin hörmətli iştirakçıları!

Bu gün Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq şairi Məmməd Arazın 80 illik yubileyini qeyd edirik.

Yubiley münasibətilə tədbir iştirakçılarını, muxtar respublikanın yaradıcı ziyalılarını, xalqımızı təbrik edirəm!

Azərbaycan ədəbiyyatının inkişafında Məmməd Arazın müstəsna xidmətləri vardır. Onun təkrarolunmaz yaradıcılığı zəngin ənənələrə malik milli ədəbiyyatımızı yeni mərhələyə çıxarmış, Azərbaycan fəlsəfi və siyasi lirikası Məmməd Araz dühası hesabına daha da zənginləşmişdir.

Görkəmli şairin Azərbaycan ədəbiyyatının inkişafındakı xidmətlərini nəzərə alan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Məmməd Arazın 80 illik yubileyi haqqında" Sərəncam imzalamışdır. Bu sərəncam Azərbaycan ədəbiyyatının, bütövlükdə, yaradıcı ziyalıların, o cümlədən Məmməd Araz sənətinin və şəxsiyyətinin böyük himayədarı, ulu öndər Heydər Əliyev ənənələrinin müasir şəraitdə uğurlu davamı kimi yüksək dəyərə malikdir. Xalq şairi, Dövlət mükafatı laureatı Məmməd Arazın 80 illik yubileyinin dövlət səviyyəsində keçirilməsi barədə rəhbər göstərişinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlığımızı bildiririk!

Azərbaycan poeziyasının milli iftixarı olan Məmməd Arazın 80 illik yubileyinə onun Vətənində də böyük hazırlıq işləri görülmüşdür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Xalq şairi Məmməd Arazın 80 illik yubileyinin keçirilməsi haqqında" 2013-cü il 8 iyun tarixli Sərəncamı ilə təsdiq olunmuş Tədbirlər Planına əsasən, muxtar respublikamızın rayonlarında, elm, təhsil və mədəniyyət müəssisələrində, yaradıcılıq təşkilatlarında tədbirlər keçirilmiş, şairin əsərlərindən ibarət sərgilər təşkil edilmiş, Naxçıvan şəhərindəki küçələrdən birinə Xalq şairi Məmməd Arazın adı verilmişdir. Bundan əlavə, Məmməd Arazın 80 illiyi ilə bağlı poçt markası buraxılmış, "Naxçıvan" jurnalının bir nömrəsi böyük şairin 80 illik yubileyinə həsr olunmuşdur. Məmməd Arazın yaradıcılığının öyrənilməsi və təbliği məqsədilə şairin doğulub boya-başa çatdığı Şahbuz rayonunun Nursu kəndində ev-muzeyinin yaradılması qərara alınmışdır.

Məmməd Araz böyük poetik ilhama malik olan sənətkardır. Ölkə Prezidentinin imzaladığı sərəncamda şairin yaradıcılığı yüksək qiymətləndirilərək qeyd edilir ki, ***"Məmməd Araz yaradıcılığı Azərbaycan poeziyasının parlaq səhifələrindən birini təşkil edir. Şairin yüksək bədii-fəlsəfi ümumiləşdirmələrlə səciyyələnən, lakonik deyim tərzinə malik dərin ictimai məzmunlu lirikası gücünü Vətən təbiətinin gözəlliklərindən, böyük tarixi keçmişindən və milli ədəbiyyatımızın tükənməz xəzinəsindən almışdır".***

Məmməd Araz poeziyası misilsiz istedadın və təkrarolunmaz yaradıcı ruhun məhsuludur. O, müasir dövr Azərbaycan lirikasının poetik zirvəsini fəth edən və bu zirvədə əbədi yaşamaq haqqı qazanan qüdrətli şair, publisist, filosof və sözün həqiqi mənasında, layiqli vətəndaşdır.

Sözün və sənətin Məmməd Araz zirvəsinə gedən yol heç də həmişə hamar olmayıb. Onun həyatı da sənəti kimi daşlı-qayalı yollardan keçib. Böyük şair şeirlərindən birində deyirdi ki:

Məni şerimdə gəz, bir insan kimi,
Qəlbimdə nə varsa, ona demişəm.

Bir çox istedadlı şairlər kimi, Məmməd Arazın da əsərləri onun ibrətamiz həyat dastanıdır. Bu dastanın ilk sətirləri 80 il bundan əvvəl yazılmışdır. 1933-cü il oktyabrın 14-də Şahbuz rayonunun Nursu kəndində dünyaya göz açan Məmməd İnfil oğlu İbrahimov – Məmməd Araz ilk təhsilini həmin kənddə almışdır. 1954-cü ildə Azərbaycan Pedaqoji İnstitutunu bitirən böyük sənətkar 1961-ci ildə Moskvada Maksim Qorki adına Ədəbiyyat İnstitutunda oxumuşdur. Azərbaycan Dövlət Nəşriyyatında bədii ədəbiyyat redaksiyasının müdiri, sonra isə baş redaktorun müavini, "Ulduz" jurnalında məsul katib, "Ədəbiyyat və incəsənət" qəzetində baş redaktorun müavini işləmişdir. 1971-1981-ci illərdə Azərbaycan Yazıçılar İttifaqının poeziya bölməsinə rəhbərlik edən Məmməd Araz 1974-cü ildən ömrünün sonunadək "Azərbaycan təbiəti" jurnalının baş redaktoru olmuşdur.

Harada işləməsindən, hansı vəzifəni tutmasından asılı olmayaraq, Məmməd Araz, əslində, bütün ömrü boyu bir vəzifəni icra etmişdir. O da poetik Azərbaycan dünyasına xidmət, Vətən qarşısında vətəndaşlıq borcunu yerinə yetirməkdir.

Vətəndaşlıq borcu duyğusu Məmməd Arazda çox erkən baş qaldırmışdır. O hələ 1956-cı ildə qələmə aldığı "Bizim gənclik" şerində özünü və sənətini "xalqın müqəddəs, mübariz çağırışı"na həsr edəcəyini bildirmiş, ədəbi fəaliyyətdəki missiyasını belə müəyyənləşdirmişdir: "Ürəyimsiz kəlmə yazan deyiləm". Bu fikrin səsləndiyi dövrdə "ürəyin hökmü ilə" ortaya əsər qoymaq böyük cəsarət tələb edirdi. Çünki zamanın və imperiyanın da öz hökmü vardı və bu hökm heç də həmişə Azərbaycanın xeyrinə işləmirdi. Belə bir dövrdə vətəndaş ləyaqəti göstərmək, ziyalı mövqeyindən çıxış etmək tələb olunurdu. Məmməd Araz bu tələbi ilk başa düşənlərdən, ədəbiyyat tariximizdə "60-cı illər nəsli" adlandırılan yaradıcı elitanın öndə gedənlərindən biri oldu. Onun bu dövrdə "Professor Gülə məktub" şeri Sovetlər Birliyi mühitində şimşək kimi çaxaraq milli yaradıcı düşüncənin oyanışından xəbər verirdi. Həmin şerində Məmməd Araz yazırdı:

Xəzər...
Sağılır qızıl inək kimi.

50-60-cı illərin Azərbaycan Sovet ədəbiyyatında, bir qayda olaraq, Xəzər mövzusundan danışılarkən neft buruqları, neftçi əməyi tərənnüm olunurdu. Bunun əksinə olaraq, Məmməd Araz Xəzərin ekoloji problemlərini qabardır, milli sərvətimizin talan edilməsindən narahatçılıq keçirərək xalqı öz sərvətinin sahibi olmağa çağırırdı. Bu da faktdır ki, ötən əsrin 60-cı illərində "Məndən, səndən ötən zərbə, Vətən, Vətən, sənə dəydi" çağırışını Azərbaycan poeziyasının predmetinə çevirən ilk milli şair də Məmməd Araz olmuşdur.

Belə bir ifadə var: həyat hadisələrini bilmək azdır. Onu ədəbi düşüncənin, poeziyanın predmetinə çevirməyi bacarmaq lazımdır. Böyük istedadı və poetik bacarığı sayəsində Məmməd Araz Nizami Gəncəvi, Məhəmməd Füzuli, Mirzə Ələkbər Sabir və Səməd Vurğun poeziyası ilə ona qədər gəlib çatan klassik şeir ənənəsini və üslubunu təkmilləşdirərək hamının gördüyü və bildiyi, lakin dilə gətirməyi bacarmadığı məsələləri ictimai düşüncənin məhsulu etmiş, Azərbaycanda vətəndaşlıq poeziyasının əsasını qoymuşdur.

Gənc yaşlarından başlayaraq yarım əsrdən artıq davam edən Məmməd Araz yaradıcılığı mənsub olduğu xalqa layiqli şair – vətəndaş xidməti nümunəsidir. Onun şerinin əvvəli də, axırı da Vətəndir. Məmməd Araza məxsus "Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı" məşhur misraları müasir dövrdə poeziyada və ictimai mühitdə vətəndaşlığın milli düsturu kimi qəbul olunur.

Bəzən şairlər "Vətən" sözünü tez-tez təkrar etməklə bu mövzuda yaxşı əsər yazdıqlarını düşünürlər. Aydın məsələdir ki, belə əsərlər hələ Vətən mövzusunda yaxşı əsərlər kimi qəbul oluna bilməz. Məmməd Araz bədii ədəbiyyatda Vətən mövzusuna özünün nəzəri baxışını əsaslandıraraq yazırdı ki: "Vətən torpağı fiziki cəhətdən daim dəyişdiyi, onun xarici mənzərəsi gözəçarpacaq dərəcədə yeni görkəm aldığı kimi, Vətənin vətəndaş oğlunun da münasibəti yaxşı mənada dəyişməlidir. Şair ucsuz-bucaqsız kainat axınında üzən bu Vətən gəmisini müxtəlif səmtlərdən görməli, onu tuta biləcək meteor yağışlarını duyub xəbər verməlidir. Bunlar, əlbəttə, astronomik, meteoroloji məkanda yox, beynəlxalq, siyasi, ictimai, mənəvi mənada başa düşülməlidir".

Məmməd Arazın irəli sürdüyü bu fikirlər o dərəcədə ciddi mətləblərdən xəbər verirdi ki, onları tərənnüm şeri ilə ifadə etmək mümkün deyildi. Ona görə də ötən əsrin 50-ci illərində Məmməd Arazın ilk qələm təcrübəsi olan tərənnüm poeziyası, şerin fikir yükü artdıqca öz yerini düşüncə poeziyasına vermişdir. Bununla bərabər, tərənnüm şeirlərinin müəllifi kimi, Məmməd İbrahim təxəllüsü də düşüncə poeziyasının böyük ustadı Məmməd Arazla əvəzlənmişdir.

Bu, sadəcə, təxəllüs dəyişikliyi deyildi. Məmməd Araz yaradıcılığından qırmızı xətlə keçən Araz mövzusu poeziyamıza vətəndaşlıq lirikasının ən yaxşı nümunələrini gətirmişdir. Ona görə ki, bu mövzu şairin ruhuna və təbiətinə uyğun idi. O, Arazla öz doğma dilində danışmağı bacarır, hətta şeirlərinin birində "Araz dili" ifadəsini işlədərək yazırdı:

Mən neçə yol danışmışam Arazla,
Araz dili, ürək dili, göz dili,
Torpaq dili, hava dili, göy dili.

Məmməd Araz yaradıcılığının baş qəhrəmanı Azərbaycandır. Onun "Vətən mənə oğul desə", "Məndən ötdü, qardaşıma dəydi", "Mənim Naxçıvanım", "Ata ocağı", "Ana yurdum, hər daşına üz qoyum" şeirləri Vətən mövzusunda ən yaxşı əsərlər kimi dillər əzbəri olmuşdur.

Poeziyamızda Azərbaycan mövzusunda çox yazılıb. Azərbaycana çoxlu şeirlər ithaf olunub. Amma Məmməd Arazın "Azərbaycan – dünyam mənim" şerinin bənzəri yaradılmayıb. Bu şerin bütün intonasiyası şair qəlbinin ağrılarından, fəal vətəndaş narahatlığından keçir.

Şeir yaradıcılığında olduğu kimi, poemaları ilə də Məmməd Araz təkrarsızdır. Onun "Üç oğul anası", "Araz axır", "Mən də insan oldum", "Paslı qılınc", "Əsgər qəbri", "Atamın kitabı" poemaları, hər şeydən əvvəl, insan mənəviyyatının mürəkkəbliyi, tarix və müasirlik, milli tale və tarixi yaddaşın bərpası kimi fundamental məsələlərə həsr olunmuşdur.

Məmməd Araz düşünən və düşündürən şairdir. Buna görədir ki, onun yaradıcılığında lirik-fəlsəfi üslub üstünlük təşkil edir. Azərbaycan aşıq poeziyasında, Nizami Gəncəvi, İmadəddin Nəsimi, Hüseyn Cavid sənətində formalaşan poetik fəlsəfə Məmməd Araz yaradıcılığında yeni mərhələyə qədəm qoymuşdur. Şairin ötən əsrin 70-ci illərindən başlayaraq ardıcıl davam etdirdiyi insan və dünya barədə fəlsəfi düşüncələri böyük tərbiyəvi əhəmiyyətə malikdir. Hikmət və müdriklik onun poeziyasının mahiyyətindədir. Məmməd Arazın "Dünya düzəlmir ki, düzəlmir, baba!" şeirlər toplusu ilk sətrindən son səhifəsinə qədər xalqımıza xas olan müdrikliyin məhsuludur.

Ardı 2-ci səhifədə

Azərbaycan xalqının hikmət və qəhrəmanlıq xəzinəsi olan "Kitabi-Dədə Qorqud"da dünya mövzusu "Gəlimli-gedimli dünya, bir ucu ölümlü dünya" kimi təqdim olunursa, Məmməd Arazın poetik aləmində "dünya" monumental obraz səviyyəsinə yüksəlir:

Dünya sənin,
Dünya mənim,
Dünya heç kimin!

Məmməd Araz yaradıcılığının bəzəyi düşüncədir. O, oxucunu sözlər vasitəsi ilə düşündürür. Bu sözlərin isə hər birinin öz məna tutumu var. Sadəlik, poetik vüsət, ifadə özünəməxsusluğu – bütün bunlar Məmməd Araz yaradıcılığına fəlsəfi dəyər və hikmət gətirmişdir. Bu gün sözləri zərb-məsələ, hikmətli sözlərə çevrilən az sayda şair var ki, onlardan biri də Məmməd Arazdır.

Şairin aforizmə çevrilmiş bəzi fikirlərinə diqqət yetirək: "Nahaqqa tən olan haqq itər"; "Dərd asan əkilər, çətin biçilər"; "Od halal olmasa, ocaq alışmaz"; "Qeyrətdən güc alar gücü az ölkə"; "Bu dünyada qurmaq çətin, yıxmaq asan"; "Halal şöhrətlərə şöhrətdi zaman".

Azərbaycan poeziya sənətinin zəngin ənənələrini müstəqillik dövründə də yaşadaraq davam etdirən Məmməd Arazın adı bu gün böyük ehtiramla anılır. Öz əsərləri ilə yüksək bədii sənətkarlıq və əsl vətəndaşlıq qeyrəti aşılayan, doğma Vətəni sonsuz məhəbbətlə sevən Məmməd Araz poeziyasını Azərbaycan torpağından, tariximizdən ayrı təsəvvür etmək mümkün deyil.

Azərbaycan dilinə dərindən bələdlik, doğma Vətənə bağlılıq, istiqlalçılıq, vətəndaş hisslərinin tərənnümü, fikir dərinliyi və sadəlik, poetik təfəkkürün genişliyi kimi yüksək yaradıcılıq keyfiyyətləri Məmməd Araz irsinə uzunömürlülük vermiş, onun geniş oxucu kütləsinin dərin rəğbətini qazanan əsərlərinə mahnılar bəstələnmişdir.

Məmməd Araz yaradıcılığında publisistikanın da özünəməxsus yeri vardır. Məmməd Araz publisistikası Azərbaycan bədii publisistikasının ən gözəl nümunələrindəndir. O yerdə ki ciddi həyat mətləbləri şerin ölçülərinə sığışmır, Məmməd Araz onları publisistika materialları kimi təqdim edir. Məmməd Arazın "Yer üzünün Qarabağ düzü", "Naxçıvan albomu", "Kür qovuşur Salyana", "Torpaqdan göyərən ucalıq", "Arpaçayın aşıb-daşan nəğməsi" kimi publisistik yazıları aradan uzun illər keçməsinə baxmayaraq, aktuallığını bu gün də itirməyən sənət nümunələridir. Əgər Naxçıvan torpağının yetirməsi rəssam Bəhruz Kəngərli ən yaxşı sənət nümunələrini "Naxçıvan yadigarı"nda toplamışdırsa, bu torpağın digər bir qüdrətli yetirməsi Məmməd Araz da doğulduğu torpaq barədə, onun gələcəyi haqqında düşündüklərini "Naxçıvan albomu"nda cəmləşdirib nəsillərə yadigar qoymuşdur.

Məmməd Arazın ən böyük yadigarı onun bitib-tükənməyən istedadının məhsulu olan əsərləri – şeir və poemaları, publisistika və tərcümə materiallarıdır. O, iki şeydən: ədəbi irsinin və Vətənin taleyindən narahat idi. Ədəbi irsinin yaşaması üçün öz oxucusuna müraciətlə "Yaşat məni" deyirdi.

Azərbaycanımızın yaşaması üçün isə dahi rəhbərimizə müraciət edirdi. Bu müraciət şairin 1995-ci ildə qələmə aldığı "Sənə inanıram" şerində öz poetik ifadəsini tapmışdır:

Başımın üstündə müqəddəs Quran,
Sənə inanıram, ölkə rəhbəri.
Sənə inanıram, keşikdə duran,
Ayıq Vətən oğlu, Vətən əsgəri!

Ümummilli liderimiz Heydər Əliyev Xalq şairi, poeziyamızın istedadlı nümayəndəsi Məmməd Araz yaradıcılığına və şəxsiyyətinə daim yüksək qiymət vermişdir. Təsadüfi deyil ki, Məmməd Araz ilk yaradıcılığa ötən əsrin 50-ci illərindən başlasa da, onun təkrarsız istedadı 1970-ci illərdə, ulu öndərin Azərbaycana rəhbərliyinin birinci dövründə parlamışdır. Məmməd Araza böyük şöhrət gətirən "Atamın kitabı", "Həyatın və sözün rəngləri", "Oxucuya məktub", "Qanadlı qayalar", "Aylarım, illərim" kitabları məhz bu illərdə çap olunmuş, əsərləri xarici dillərə tərcümə edilərək geniş oxucu kütləsinin məhsuluna çevrilmişdir. 1975-ci ildə Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif olunan böyük şairə 1978-ci ildə "Əməkdar mədəniyyət işçisi" fəxri adı verilmiş, 1995-ci ildə isə ümummilli liderimiz Heydər Əliyev Xalq şairi Məmməd Arazı "İstiqlal" ordeni ilə təltif etmişdir. Ulu öndərimiz Məmməd Araz sənətini yüksək dəyərləndirərək demişdir: ***"Bu gün bir daha Məmməd Arazın Azərbaycan xalqının mədəniyyətinə, ədəbiyyatına verdiyi töhfələri gördük, eşitdik və bunların xalqımız üçün nə qədər faydalı olduğunu bir daha bildik, bir daha dərk etdik ki, Azərbaycan xalqının həyatında Məmməd Arazın yaradıcılığının nə qədər böyük əhəmiyyəti var". "Ümidvaram ki, Azərbaycan xalqı daim müstəqilliyini qoruyub saxlayacaq və müstəqil Azərbaycanın ilk "İstiqlal" ordeninə layiq görülmüş şəxsiyyətlərdən biri kimi Məmməd Araz, Azərbaycan xalqının tarixində indi olduğu kimi, gələcəkdə də öz yerini tutacaqdır".***

Sağ olun.

Naxçıvanda Xalq şairi Məmməd Arazın 80 illik yubileyi qeyd edilmişdir

Məmməd Araz yaradıcılığının zirvəsində Azərbaycan torpağı, ana Vətən, onun tarixi və gözəllikləri dayanır. Şairin qələmindən çıxan misralar insanı bütövlüyə, kamilliyə, milli və bəşəri dəyərlərə səsləyir. Hiss və duyğu zənginliyi, düşüncə dərinliyi, mövzu genişliyi ilə seçilən Məmməd Araz yaradıcılığı, əslində, keçmişlə gələcək arasında poetik körpüdür. Hər bir əsərini böyük ilham və vətəndaşlıq hissi ilə yazan Xalq şairi Məmməd Araz poeziyamızın qüdrətli nəğməkarlarından biridir.

Bu il Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Məmməd Arazın anadan olmasının 80 ili tamam olur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2013-cü il sentyabrın 27-də "Məmməd Arazın 80 illik yubileyi haqqında" Sərəncam imzalamış, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamına əsasən, ədibin yubileyinin muxtar respublikada qeyd olunması ilə bağlı Tədbirlər Planı təsdiq olunmuş, bir sıra tədbirlər keçirilmişdir.

Oktyabrın 14-də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Xalq şairi Məmməd Arazın 80 illiyi münasibətilə yubiley tədbiri keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yubiley tədbirində məruzə etmişdir ***(Ali Məclis Sədrinin məruzəsi qəzetin bugünkü nömrəsində dərc olunur).***

Sonra Məmməd Arazın 80 illiyinə həsr olunmuş ədəbi-bədii kompozisiya nümayiş etdirilmiş, ədibin şeirləri bədii qiraət olunmuş, müxtəlif dövrlərdə yazdığı publisistik məqalələri oxunmuşdur. Naxçıvan Dövlət Filarmoniyasının solistləri Məmməd Araz şeirlərinə bəstələnmiş mahnıları ifa etmişlər.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin mətbuat xidməti

Naxçıvanda Qurban bayramı qeyd olunmuşdur

Tanrının öz bəndələrinə lütf və mərhəmətinin ifadəsi olan müqəddəs Qurban bayramı əsrlər boyu insanların həmrəyliyinə, mənəvi saflaşmasına xidmət etmişdir.

"Qurban" sözü "yaxınlaşmaq" deməkdir. Yəni qurban kəsən hər bir kəs bu əməli ilə Allaha yaxınlaşır. Allah dərgahında kəsilən qurbanlar ruhi dəyərlərin paklanmasında, insanların xeyirxah əməllər ətrafında birləşməsində mühüm rol oynayır.

Qurban İslam aləmində ən dəyərli bayramlardan biridir. Qurban bayramı eyni zamanda müsəlmanların Həcc ziyarəti mərasiminin də bir hissəsidir.

Yüksək insani keyfiyyətlərdən olan dostluğun, qardaşlığın, fədakarlığın cəmiyyətdə inkişafı və gələcək nəsillərə təlqin edilməsi üçün gözəl fürsət kimi dəyərləndirilən Qurban bayramı müsəlman təqviminin (Hicri-qəməri təqvimi) 12-ci ayı olan Zilhiccə ayının 10-cu günü, Məkkəyə Həcc ziyarəti dövründə qurbanlıq heyvanların kəsilməsi şəklində qeyd olunur.

Azərbaycan müsəlman dünyasının ayrılmaz parçasıdır və tarixən İslam mədəniyyətinin inkişafına misilsiz töhfələr bəxş etmişdir. Digər müsəlman ölkələri kimi, Azərbaycanda da İslam dinindən irəli gələn vəzifələr yerinə yetirilir. Hər il yüzlərlə azərbaycanlı zəvvarın Həcc ziyarətinə yola düşməsi və bu ziyarətin vacib əməllərindən hesab olunan qurban kəsilməsinə

əməl etməsi xalqımızın İslam dininə bağlılığını nümayiş etdirir. Millimənəvi dəyərlərə və ənənələrə ehtiramla yanaşılan Azərbaycanda Qurban bayramı da hər il böyük təntənə ilə qeyd olunur. Xalqımızın ümummilli lideri Heydər Əliyev bu müqəddəs bayramı yüksək qiymətləndirərək demişdir: ***"Bütün müsəlmanların böyük təntənə ilə qeyd etdikləri Qurban bayramı insanın ən çətin məqamlarında düzgün mövqe seçmək, ülvi amallar uğrunda hər cür fədakarlığa hazır olmaq qüdrətini təcəssüm etdirir".***

Milli-mənəvi, islami dəyərlərin qorunması və təbliğinə ciddi diqqət yetirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev insanlar arasında həmrəyliyin və saflaşmanın bərpa olunmasında bu bayramın rolunu yüksək qiymətləndirmiş, Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrikində demişdir: ***"Qurban bayramı bəşər sivilizasiyasının möhtəşəm səhifəsini təşkil edən İslamın bir din kimi tamamlanmasını və mənəvi-əxlaqi qurtuluş yolu olaraq Yer üzünə göndərilməsini özündə təcəssüm etdirir. Bu əlamətdar gündə müsəlmanlar qurban ayinlərini icra etməklə xeyirxah amallar uğrunda hər cür fədakarlığa hazır olmağın və Uca Yaradana yaxınlığın sevinc və fərəhini yaşayırlar. Hər il ölkəmizdə dövlət səviyyəsində ümumxalq bayramı kimi qeyd olunan Qurban mərasimləri insanlar arasında bərabərlik və dözümlülük ovqatını daha da gücləndirir, cəmiyyətimizdə milli-mənəvi dəyərlərə bağlılığın, humanizm və qardaşlığın, xeyirxahlıq və mərhəmət duyğularının təntənəsinə çevrilir".***

Qurban bayramı muxtar respublikamızda da geniş qeyd edilmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri adından qurbanlar kəsilərək paylanılmışdır.

Oktyabrın 16-da muxtar respublikanın paytaxtı Naxçıvan şəhərində, eləcə də bütün rayonlarda bayram namazı qılınmış, Allahın adına qurbanlar kəsilmiş, xalqımızın və dövlətimizin əmin-amanlığı, firavanlığı üçün dualar oxunmuşdur.

Naxçıvan şəhərindəki Heydər məscidində Qurban bayramı münasibətilə keçirilən mərasimdə qeyd olunmuşdur ki, öz demokratizmi, humanizmi və bəşəri idealları ilə dünya sivilizasiyasının möhtəşəm səhifəsini təşkil edən İslam dini xalqımızın dünyagörüşünün formalaşmasında və milli-mədəni inkişafında müstəsna rol oynamış, mütərəqqi islami dəyərlər və ənənələr Azərbaycanda həmişə uca tutulmuşdur. Onlardan biri də müqəddəs Qurban bayramıdır. Bu mübarək bayram dinimizin bir sıra fəzilətlərini özündə əks etdirir. İmkanlı müsəlmanın qurban kəsib imkansızların ehtiyaclarını qismən də olsa, ödəməsi xeyirxahlığın təzahürüdür. Ölkəmizdə digər bayramlar kimi, Qurban bayramının da dövlət səviyyəsində qeyd olunması ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərimiz siyasi fəaliyyətinin bütün dövrlərində milli-mənəvi dəyərlərimizi zənginləşdirən bayramların qeyd edilməsinə qayğı ilə yanaşmışdır.

Bayram namazı qılındıqdan sonra qurban əti paylanılmışdır.

"Cümə", "Pirqəmiş", Kazım Qarabəkir Paşa məscidlərində də bu bayram milli-mənəvi həmrəyliyin, xeyirxah əməllərin ifadəsi kimi qeyd olunmuş, məscidlərdə qurban əti paylanılmışdır.

Müqəddəs bayram günündə xəstələr, ahıllar da yaddan çıxmamışdır. Naxçıvan Hərbi Hospitalında, Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri və Psixi Xəstəliklər dispanserlərində müalicə olunanlara, Naxçıvan şəhərinin müxtəlif məhəllələrində yaşayan tənha ahıllara da qurban əti paylanılmışdır.

Naxçıvan Dövlət Universitetinin yataqxanasında yaşayan tələbələr, Şahbuz Ahıllar evinin sakinləri də unudulmamışdır.

Qurban bayramı əsl təntənəyə çevrilmiş, insanlara birlik, həmrəylik, şəfqət və xeyirxahlıq duyğuları aşılamışdır.

"Şərq qapısı"

Hər bir Azərbaycan vətəndaşının Prezidenti

Azərbaycan hazırda dünya miqyasında sürətlə inkişaf edən ölkələrdən biridir. Ölkə həyatının bütün sahələrində əldə edilən yüksək göstəricilər milli inkişaf modelinin uğurlu tətbiqinin nəticəsidir. Sosial-siyasi islahatların ardıcıl həyata keçirilməsi, qanunvericilik bazasının təkmilləşdirilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması və digər bu kimi strateji tədbirlər Azərbaycanın dinamik inkişafını təmin edən fundamental faktorlardır. Bütün bu nailiyyətlər əsası 1969-cu ildə qoyulmuş inkişafın Heydər Əliyev modelinin, Heydər Əliyev quruculuq xəttinin bəhrələridir. Ümummilli liderimiz müstəqil Azərbaycanın qurucusu, xalqımızın xilaskarı, bugünkü uğurların müəllifi olmaqla bərabər, banisi olduğu dövlətçilik irsinin əbədiyaşarlığını təmin edən, ölkəmizi dünyada lider dövlətə çevirən, nəyin bahasına olursa-olsun, dövlət müstəqilliyini qoruyub möhkəmləndirən qüdrətli siyasi varisi də yetişdirmişdir. Bu gün ulu öndərimizin mənəvi-siyasi irsinin layiqli davamçısı, dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın müasir tarixinin şanlı səhifələri yazılır.

On il bundan öncə – 2003-cü il oktyabrın 1-də xalqına ünvanladığı Müraciətdə ***"... mənim hələ tamamlanmamış çox perspektivli planlarım var"*** yazan ulu öndərimiz həyatının mənası olan Azərbaycan qarşısında son xidmətini də göstərmiş, bu planları həyata keçirmək qüdrətində olan siyasi varisi barədə demişdir: ***"İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, İlham Əliyev bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəkdir. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".***

2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkilərində yekdilliklə ölkə başçısı seçilən cənab İlham Əliyev andiçmə mərasimində Azərbaycanın inkişafı üçün ölkədə Heydər Əliyev yolunun davam etdirilməsinin vacibliyini bildirərək bəyan etmişdir ki: ***"Azərbaycan xalqı Heydər Əliyev siyasətinə səs veribdir. Sülhə, əmin-amanlığa, tərəqqiyə, inkişafa, quruculuğa, sabitliyə səs veribdir. Bu siyasətə Azərbaycanda alternativ yoxdur. Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyev siyasəti davam etdirilməlidir. Mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyev siyasətini davam etdirəcəyəm".***

Ulu öndərimizin əsasını qoyduğu inkişaf strategiyasını uğurla davam etdirən cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizin inkişafı daha da sürətlənmiş, yeni-yeni uğurlara imza atılmışdır. Hörmətli Prezidentimizin fəaliyyətinin 10 ilində əldə olunan nailiyyətlər, qısa müddətdə Azərbaycanın keçid dövrünü yaşayan ölkədən inkişaf edən ölkələr sırasına çıxarılması Heydər Əliyev yoluna sədaqətin nəticəsidir. Dövlət başçısı dəfələrlə bəyan etmişdir ki, o, dövlət idarəçiliyinə dair hər hansı mühüm qərar qəbul etməzdən öncə "Heydər Əliyev bu məsələni necə həll edərdi?" sualına cavab tapmağa çalışır.

Praqmatik düşüncə, işgüzarlıq, xalqına, Vətəninə, millətinə bağlılıq, qətiyyət, məqsədə doğru inamla irəliləmək – bütün bunlar cənab İlham Əliyevə xalqın rəğbətini artıran ən mühüm mənəvi keyfiyyətlərdir. İlham Əliyev şəxsiyyətində intellektlə istedadın, milli-mənəvi dəyərlərə bağlılıqla modernizmin, milli düşüncə ilə müasir düşüncənin, dövlət başçısı kimi ciddiliklə humanistliyin, rəhbərliklə sadəliyin vəhdəti kimi güclü xarakter cizgiləri formalaşmışdır.

Dövlət başçısının Azərbaycanda həyata keçirdiyi iqtisadi siyasətin kökündə "real iş görmək" prinsipi dayanır. Bütün ölkəni əhatə edən tikinti və quruculuq işlərinin aparılması, yollar və körpülərin salınması, istehsal müəssisələrinin istifadəyə verilməsi, sənaye və kənd təsərrüfatı sahələrində yüz minlərlə iş yerlərinin açılması, məktəblərin, xəstəxanaların, idman komplekslərinin tikilməsi, qitələri birləşdirən dəmir yollarının, transmilli neft və qaz kəmərlərinin çəkilməsi, elektrik, su və qaz təminatının, insanların rifahının yaxşılaşdırılması istiqamətində tədbirlərin görülməsi cənab İlham Əliyevin səmərəli fəaliyyətinin yalnız görünən tərəfidir. Ölkə rəhbərinin yeritdiyi siyasi kursda iqtisadi inkişaf, sadəcə, məqsəd deyil, həm də vasitədir: dövlət müstəqilliyinin qorunması, Azərbaycanın dünyada lider ölkəyə çevrilməsi yolunda vasitə!

Ötən əsrin 70-80-ci illərində ümummilli liderimiz Heydər Əliyev Azərbaycanı iqtisadi cəhətdən inkişaf etdirib müstəqil dövlətə çevirdi. Bu gün davam etdirilən yol həmin yoldur, böyük inkişafı hədəfləyən strateji məqsəd həmin məqsəddir. Ulu öndərimizin məqsədi Azərbaycanın müstəqilliyinə nail olmaq idisə, cənab İlham Əliyevin amalı əldə edilmiş müstəqilliyi qorumaqdır.

Xalqımızın böyük oğlu 1969-1982-ci illərdə Azərbaycanda həyata keçirdiyi taleyüklü tədbirlərin mahiyyətini belə xarakterizə edirdi: ***"Bəli, mən istəyirdim ki, Azərbaycan müstəqil olsun. Hər şeydən əvvəl, iqtisadi cəhətdən. Çünki istənilən müstəqilliyin əsasında iqtisadiyyat durur. Mən istəyirdim ki, mənim ölkəm, mənim xalqım istənilən şəraitdə müstəqil yaşaya bilsin".***

Azərbaycan Prezidenti cənab İlham Əliyev bu fikri yeni müstəvidə davam etdirərək deyir: ***"Dünyada müstəqil sayılan ölkələr çoxdur. Ancaq əgər biz bir az dərinə baxsaq, görərik ki, onların heç də hər biri müstəqil siyasət aparmaq iqtidarında deyildir... O ölkələr dünyada özünə layiqli yeri tutar ki, o ölkələr öz hesabına yaşaya bilsinlər, başqa ölkələrin yardımına onların ehtiyacı olmasın – nə siyasi, nə iqtisadi cəhətdən. Azərbaycan bu ölkələrdəndir".*** Burada biz "müstəqillik" anlayışının yeni dövrün tələblərinə uyğun şəkildə zənginləşdirildiyini görürük. Dövlət müstəqilliyinin ənənəvi anlamına görə, hansısa bir ərazidə müəyyən bir siyasi kursu tətbiq etmək tam müstəqillik deyil. Sözün gerçək mənasında, tam müstəqil olmaq üçün sərhəd toxunulmazlığı və müstəqil siyasət aparmaq əsas şərtdir. Sərhədi guya toxunulmaz qalan və formal müstəqilliyi olan elə ölkələr var ki, orada hər şey xarici investisiyadan asılıdır, müxtəlif ölkələrin şirkətlərinin sifarişi ilə həll olunur. Azərbaycanda isə ümummilli liderimizin bizə ən böyük əmanəti olan dövlət müstəqilliyi nəinki qorunub saxlanılmışdır, o daha da gücləndirilmişdir. ***"Müstəqillik yalnız dövlət atributları ilə ölçülmür, müstəqillik rəmzləri ilə ölçülmür. Müstəqillik o deməkdir ki, dövlət və ölkənin rəhbərliyi öz xalqının maraqlarına tam cavab verən müstəqil siyasət aparmaq iqtidarında olsun"***, – deyən Azərbaycan Prezidentinin əsas qayəsi ölkəmizin heç bir güc mərkəzindən asılı olmadan müstəqil siyasət aparması, hər bir sahədə xalqın mənafeyinin əsas götürülməsidir. Əminliklə demək olar ki, artıq buna nail olunmuşdur.

Ölkənin lider dövlətə çevrilməsi yolunda müstəqil siyasət apara bilməsi üçün iqtisadi inkişafla yanaşı, insan kapitalının formalaşdırılması da mühüm rol oynayır. Dövlət başçısı bu reallığı düzgün qiymətləndirir və deyir ki: ***"Bizim ən böyük resursumuz insanlarımızın biliyidir, savadıdır. Biz öz imkanlarımızdan səmərəli istifadə edərək maddi kapitalı insan kapitalına çevirməliyik".*** Son illər Azərbaycanda istifadəyə verilən təhsil ocaqları, ən müasir informasiya texnologiyalarının tətbiqi məhz insan kapitalının formalaşdırılmasına xidmət edir. Elm, təhsil və təsərrüfat sahələrinin kompüterləşdirilməsi, yeni kommunikasiya sistemlərinə keçid, rabitə və informasiya texnologiyalarının modernləşdirilməsi sahəsində böyük uğurlar əldə edilmişdir. Ölkəmizdə qeyri-neft sektorunun inkişafı heç də kənd təsərrüfatı məhsullarının istehsalı və yüngül sənaye hesabına deyil, xeyli dərəcədə müasir informasiya texnologiyalarının tətbiqi sayəsində həyata keçirilir. Bütün bunlar Azərbaycanın yalnız öz təbii sərvətlərinə yönəldilmiş passiv iqtisadi siyasət aparmadığını və elmtutumlu sahələrin inkişafına üstünlük verdiyini göstərir. Göründüyü kimi, cənab İlham Əliyev Azərbaycanın müstəqilliyini möhkəmləndirmək, ölkəni daha da inkişaf etdirmək yolunda milli-mənəvi dəyərlərin qorunması, gənclərin milli ruhda tərbiyə edilməsi ilə bərabər, onların müasir informasiya texnologiyalarını dərindən mənimsəməsini də vacib sayır. Beləliklə, Azərbaycanda milli ruhda böyüyən, adət-ənənələrimizə sadiq, soykökə bağlı müasir gənclik yetişir.

Azərbaycan Prezidenti cənab İlham Əliyev dünya miqyasında qəbul olunan siyasətçidir. Bu səbəbdəndir ki, Azərbaycan beynəlxalq aləmdə söz sahibidir. Əksər ölkələr tərəfindən Azərbaycanın uğurları dəstəklənir. Azərbaycan getdikcə dünyada daha möhkəm mövqeyə sahib olur, onun beynəlxalq nüfuzu möhkəmlənir. 2011-ci ilin oktyabr ayında Azərbaycanın 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi dövlət başçısının həyata keçirdiyi siyasətin daha bir böyük uğurudur.

Cənab İlham Əliyevin fəaliyyəti dövründə ölkəmizdə bütün sahələrin yüksək templə inkişafı təmin olunmuş və dinamik xarakter almışdır. 1994-cü ildən həyata keçirilən yeni neft strategiyasının müasir tələblər səviyyəsində davam etdirilməsi, Azərbaycanı regionda böyük nüfuz sahibinə, aparıcı dövlətə çevirən qlobal enerji və kommunikasiya layihələrinin ardıcıl surətdə həyata keçirilməsi dövlət başçısının siyasətinin prioritet istiqamətləri sırasında mühüm yer tutur. Müəllifi ulu öndərimiz Heydər Əliyev olan Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərlərinin çəkilişinin başa çatdırılması ölkəmizin sürətli inkişafına təkan vermişdir. Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin çəkilişinin reallaşdırılması Azərbaycanın gələcək inkişafı baxımından müstəsna əhəmiyyətə malikdir. Regionda reallaşdırılan enerji layihələrinin Ermənistanın iştirakı olmadan həyata keçirilməsi Azərbaycan Prezidentinin siyasi uzaqgörənliyinin, qətiyyətinin nəticəsidir.

Azərbaycan iqtisadiyyatı artıq, tam mənası ilə, şaxələndirilmiş iqtisadiyyatdır. 2009-cu ilin iqtisadi və maliyyə böhranı bunu bir daha təsdiq etdi. Dünyanı bürüyən qlobal böhrana baxmayaraq, Azərbaycanın uğurlu inkişafı təmin olunmuşdur. Son 10 ildə ölkəmizdə bütün sosial məsələlər öz həllini tapmış, valyuta ehtiyatlarımız daha da çoxalmışdır. Qeyd olunan dövr ərzində iqtisadiyyat real ifadədə 3,4 dəfə artmış, qeyri-neft sahələrində 2,7 dəfə artıma nail olunmuşdur. Dövlət büdcəsi 19 dəfə artmış, iqtisadiyyata 110 milyard manat sərmayə qoyulmuşdur. Davos İqtisadi Forumunun "2012-2013 Qlobal Rəqabətqabiliyyətlilik İndeksi"nə görə, Azərbaycan dünyada 46-cı, MDB məkanında birinci yerdədir. Cənab İlham Əliyevin Prezidentlik fəaliyyəti dövründə iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün əsas kapitala 84 milyard manat vəsait yönəldilmiş, onun 49 faizini dövlət, 51 faizini isə qeyri-dövlət investisiyaları təşkil etmişdir. Daxili mənbələrdən əsas kapitala yönəldilmiş vəsaitin həcmi 12,3 dəfə artaraq 55,5 milyard manata çatmış, xarici mənbələrdən əsas kapitala 28,5 milyard manat yönəldilmişdir. Qeyri-neft sektorunun inkişafına yönəldilən vəsaitin ümumi həcmi 11,1 dəfə artaraq 52,1 milyard manat olmuşdur. İqtisadiyyatın inkişafı sosial problemlərin həllinə şərait yaratmış, əhalinin maddi-rifah halı yaxşılaşdırılmışdır. Bu dövrdə əhalinin sosial müdafiəsi və təminatına çəkilən xərclər 9,3 dəfə çoxalmışdır. Əhalinin gəlirləri 6,9 dəfə, əməkhaqqı 6,3 dəfə, pensiyalar 8,6 dəfə artmışdır. Yoxsulluğun səviyyəsi 44,7 faizdən 6 faizə enmiş, yoxsul əhalinin sayı 7,8 dəfə azalmışdır. Ümumi sahəsi 17,1 milyon kvadratmetr olan yeni evlər inşa olunmuşdur. Əhalinin sayı 1 milyon 7 min nəfər artaraq 9 milyon 365,5 min nəfər olmuş, ömür uzunluğu 1,6 yaş artaraq 73,9 yaşa çatmışdır. Qeyd olunan dövrdə 1,2 milyon yeni iş yeri açılmış, iqtisadi fəal əhalinin sayı 7,2 faiz, məşğul əhalinin sayı isə 1,9 dəfə artmış, işsizliyin səviyyəsi 5 faizə enmişdir. Dövlət büdcəsindən elmin inkişafına sərf olunan xərclər 10,2 dəfə, təhsilə yönəldilən xərclər 7,6 dəfə, səhiyyəyə sərf olunan xərclər 13,6 dəfə artmışdır.

Cənab İlhan Əliyevin Prezidenlik fəaliyyəti dövründə ən çox inkişaf edən sahələrdən biri də rabitə və informasiya texnologiyalarıdır. Azərbaycan 2013-cü il fevralın 8-də ilk telekommunikasiya peykini orbitə çıxarmışdır. Davos İqtisadi Forumunun "Qlobal İnformasiya Texnologiyaları-2012" hesabatında Azərbaycan "Şəbəkə Hazırlığı İndeksi"nə görə, əvvəlki mövqeyindən 9 pillə irəliləyərək dünyanın 142 ölkəsi arasında 61-ci yerə yüksəlmişdir. Ölkəmiz hər 100 nəfərə düşən internet istifadəçilərinin sayına görə MDB-də birinci yerdədir. Əhalinin hər 100 nəfərindən 56-sı kompüter, 70-i internet istifadəçisidir.

Bu, bir daha göstərir ki, uğurlu xarici siyasətin təməlində uğurlu daxili siyasət dayanır. Bu gün qlobal iqtisadi böhran şəraitində inkişaf tempini saxlayan və davam etdirən çox az sayda ölkələrdən biri də məhz Azərbaycandır.

Ölkə iqtisadiyyatının sektorlar üzrə inkişafında yaranmış fərqin aradan qaldırılması ilə yanaşı, iqtisadiyyatın regionlar üzrə tarazlı inkişafı da diqqət mərkəzində saxlanılan məsələlərdəndir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun fikirləri ilə ifadə etsək, ***"Bu gün Azərbaycanda elə bir sahə yoxdur ki, o sahə üzrə hərtərəfli əsaslandırılmış inkişaf proqramı olmasın. Qəbul olunmuş proqramların mühüm elementlərindən biri də regionların sosial-iqtisadi inkişafı ilə bağlıdır. Hələ hakimiyyətinin ilk illərindən bölgələrin inkişafı olmadan Azərbaycanın inkişafının mümkün olmadığını bildirən dövlətimizin rəhbəri tövsiyə etmişdir ki, Azərbaycanın hər bir bölgəsi inkişaf etməli, hər bir rayon mərkəzi müasir standartlara cavab verməli, genişmiqyaslı abadlıq işləri aparılmalı, yollar, körpülər salınmalı, sosial obyektlər tikilməli, insanların gündəlik həyatında müsbət dəyişikliklər baş verməlidir".***

Konseptual əsasları ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilən bu siyasət Naxçıvan Muxtar Respublikasının timsalında əyani şəkildə özünü göstərməkdədir. Müəyyən olunmuş siyasi xəttin muxtar respublikada uğurla həyata keçirilməsinin nəticəsidir ki, bu gün Naxçıvan öz inkişafının yeni mərhələsini yaşayır.

Dövlət başçısı 2004-cü ildən bəri 10 dəfə Naxçıvan Muxtar Respublikasında səfərdə olmuş, elm, təhsil və mədəniyyət, idman, səhiyyə və sosial təminat, energetika, meliorasiya, yol tikintisi və sahibkarlıq, eləcə də hərbi quruculuq sahələrini əhatə edən 70-ə yaxın obyektin açılışında iştirak etmiş, uzun fasilədən sonra 2005-ci ildə Naxçıvan Muxtar Respublikasına təbii qazın verilməsi bərpa olunmuşdur.

Azərbaycan Prezidentinin sərəncamlarına əsasən, Naxçıvan Muxtar Respublikasının 80 və 85 illik yubileyləri dövlət səviyyəsində qeyd olunmuş, Naxçıvanın tarixinə dair yeni elmi araşdırmalar aparılmış, milli dəyərlərin inkişafı, tarixi abidələrin qorunması və bərpası istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Görülən tədbirlər, tikilən obyektlər ölkəmizin iqtisadi qüdrətinin əyani təzahürüdür. Təsadüfi deyildir ki, təkcə son on ildə muxtar respublika iqtisadiyyatı real ifadədə 12,5 dəfə artmışdır. Sənaye sahəsində 45,4 dəfə, kənd təsərrüfatında 4,5 dəfə, tikinti sektorunda 14,2 dəfə, nəqliyyat sektorunda gəlirlər üzrə 3,3 dəfə, rabitə və informasiya sektorunda 9,7 dəfə, xarici ticarət dövriyyəsində 12,2 dəfə artım olmuşdur. İqtisadiyyatın və sosial sahələrin inkişafı üçün əsas kapitala 3 milyard 704 milyon manat vəsait yönəldilmiş, onun 46,4 faizini dövlət, 53,6 faizini isə qeyri-dövlət investisiyaları təşkil etmişdir. Daxili mənbələrdən əsas kapitala yönəldilmiş vəsaitin həcmi 15,8 dəfə artaraq 3 milyard 588 milyon manat təşkil etmiş, xarici mənbələrdən əsas kapitala 116 milyon manat vəsait yönəldilmişdir. Dövlət tərəfindən sahibkarlıq subyektlərinə 89,8 milyon manat güzəştli kredit verilmişdir. Ümumi məhsul istehsalının həcmində qeyri-dövlət müəssisələrinin payı 87 faiz olmuşdur. Bu dövrdə 954 istehsal və xidmət müəssisəsi yaradılmış, sahibkarlıq subyektlərinin sayı 2 dəfə artmışdır. Sahibkarlığın inkişafına göstərilən qayğının, iqtisadiyyatın sürətli inkişafının nəticəsidir ki, 58 min 460 yeni iş yeri açılmış, muxtar respublikada işsizliyin səviyyəsi sıfra enmişdir. Əhalinin sosial müdafiəsinə və təminatına çəkilən xərclər 55,1 dəfə, əhalinin gəlirləri 9,5 dəfə, əməkhaqqı 9,5 dəfə yüksəlmişdir. Yoxsulluğun səviyyəsi 35,1 faizdən 4,5 faizə enmiş, yoxsul əhalinin sayı 6,8 dəfə azalmışdır. Ümumi sahəsi 1 milyon 451 min kvadratmetr olan yeni evlər inşa olunmuşdur.

Azərbaycan Prezidenti Naxçıvana sonuncu səfərində də muxtar respublikada aparılan quruculuq işlərini yüksək qiymətləndirmiş və bunun səbəblərini belə açıqlamışdır: ***"Burada hər bir sahədə gözəl inkişaf vardır... Hər tərəf göz oxşayır, hər tərəfdə böyük zövqlə binalar tikilir. Bütün bu işlər onu göstərir ki, bu işləri görən insanlar doğma xalqına, doğma diyarına qəlbən bağlıdırlar.***

Ardı 4-cü səhifədə

Əsas məsələ Vətən sevgisidir. İqtisadi imkanlar böyük də ola bilər, o qədər böyük olmaya da bilər. Amma əgər Vətən sevgisi varsa, məhdud iqtisadi imkanlarla da çox iş görmək olar. Mən çox şadam ki, naxçıvanlıların Vətənə bağlılığı həmişə olduğu kimi, çox yüksək səviyyədədir".

Blokadanın çətinliklərinə baxmayaraq, muxtar respublikada böyük quruculuq proqramı gerçəkləşdirilmiş, Naxçıvan yeni inkişaf mərhələsinə qədəm qoymuş, bütün sahələrdə mühüm nailiyyətlər əldə olunmuşdur.

Cənab İlham Əliyev bütün sahələrdə Heydər Əliyev yoluna sədaqətini nümayiş etdirir. O, Heydər Əliyev kimi xalqın problemlərini xalqın özündən öyrənməyə daha çox üstünlük verir. Ona görə də xalqla birbaşa təmasda olur, yerlərdə sıravi vətəndaşlarla daim görüşlər keçirir, onlarla səmimi söhbətlər edərək problemlərinin həlli istiqamətində çevik qərarlar qəbul edir. Ölkə başçısı müdrik dövlət adamlarına xas olan qabiliyyətlə hər kəslə dil tapmağı, Prezident-vətəndaş arasındakı səddi aradan götürməyi bacarır. Onun vətəndaşların problemlərinə həssas yanaşdığını son dövrlər imzaladığı sərəncamlar da açıq-aydın göstərir. Yerlərdə keçirdiyi görüşlərdə hər bir vətəndaşı diqqətlə dinləyən, onların problemlərinin həlli üçün lazımi göstərişlər verən cənab İlham Əliyevin vətəndaşlarla görüşlərində qaldırılan elə bir problem yoxdur ki, öz həllini tapmasın.

Ölkə rəhbəri dəfələrlə vurğulayıb ki, əldə olunan uğurların təməlində Heydər Əliyev siyasəti dayanır. O, yeni dövrlə səsləşən çoxşaxəli islahatları məhz ulu öndərimizin müəllifi olduğu möhkəm təməl üzərində davam etdirir, yeni çalarlarla zənginləşdirir. Bu siyasi kursun davamlılığının təmin olunması Azərbaycanın hərtərəfli yüksəlişinə ən etibarlı təminatdır. Elə bunun nəticəsidir ki, bir neçə gün bundan öncə keçirilən prezident seçkilərində Azərbaycan xalqı yenə də Heydər Əliyev yolunu seçdi, cənab İlham Əliyevə səs verdi. Dövlət başçısının oktyabrın 9-da seçkilərin nəticələri ilə bağlı Azərbaycan xalqına müraciətində deyildiyi kimi: ***"Ölkəmizdə bütün proseslər müsbət istiqamətdə getmişdir. Azərbaycan xalqı bu seçkilərdə son 10 il ərzində görülən işlərə öz yüksək qiymətini vermişdir. 10 il ərzində dövlətçiliyimizin əsasları möhkəmləndi. Bu gün Azərbaycan dövləti güclü, müstəqil siyasət aparan bir dövlətdir. Bizim güclü ideoloji əsaslarımız vardır. Azərbaycançılıq məfkurəsi bizim ideoloji dayağımızdır. Azərbaycanda bütün istiqamətlərdə inkişaf, tərəqqi özünü göstərməkdədir. Biz beynəlxalq məsələlərin həllində bu gün dünya miqyasında çox önəmli ölkəyə çevrilmişik. İqtisadi güc bizə imkan verir ki, öz maraqlarımızı beynəlxalq arenada da lazımi səviyyədə müdafiə edək. Azərbaycan bu gün nəinki regional, dünya problemlərinin həllində də öz rolunu oynayır və getdikcə bizim rolumuz daha da artacaqdır".***

"Bütün bu nailiyyətlər Azərbaycan xalqının istedadı, zəhməti hesabına mümkün olmuşdur. Düşünülmüş siyasət, xalqla iqtidar arasındakı birlik və bütün təşəbbüslərimizin xalq tərəfindən dəstəklənməsi, hesab edirəm ki, uğurlarımızın əsas şərtidir, əsas səbəbidir"**, – deyən Azərbaycan Prezidenti qarşıdakı 5 ildə ölkəmizin daha sürətli inkişafına nail olacağını, Azərbaycanı daha qüdrətli dövlətə çevirəcəyini bəyan etmişdir: ***"Növbəti illərdə biz bütün istiqamətlər – iqtisadi islahatlar, sosial siyasət, enerji siyasəti, xarici siyasət üzrə ancaq və ancaq irəliyə gedəcəyik. Biz daha da güclü Azərbaycan, daha da güclü dövlət quracağıq ki, bu dövlətdə hər bir vətəndaş özünü rahat hiss etsin, sülh, əmin-amanlıq şəraitində yaşasın. Gələcək inkişafımızla bağlı məndə və əminəm ki, sizdə heç bir şübhə yoxdur. Azərbaycan bundan sonra da inamlı inkişaf dövrünü yaşayacaqdır. Azərbaycan dövləti və mən Prezident kimi Azərbaycanın milli maraqlarını müdafiə edəcəyəm, xalqın rifahını təmin edəcəyəm".

Tural SƏFƏROV

17 oktyabr Yoxsulluqla Beynəlxalq Mübarizə Günüdür

Muxtar respublika əhalisinin həyat səviyyəsi yüksəldilmişdir

Yoxsulluq tarixən bəşəriyyəti narahat edən əsas sosial problemlərdən biri olmuşdur. Bu səbəbdən də 1992-ci il dekabrın 22-də Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası hər il oktyabrın 17-nin "Yoxsulluqla Beynəlxalq Mübarizə Günü" kimi qeyd olunması barədə qərar qəbul etmişdir.

Hər bir ölkədə yoxsulluğun aradan qaldırılması həyata keçirilən dövlət siyasətinin prioritet istiqaməti kimi xarekterizə olunur. Ötən əsrin 70-ci illərindən başlayaraq ümummilli liderimiz Heydər Əliyev Azərbaycanın iqtisadi inkişafının sürətləndirilməsini, sosial sahədə dinamik inkişaf tempinin təmin edilməsini diqqət mərkəzində saxlamış, əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülmüşdür. Müstəqilliyimizin ilk illərində ölkəni bürüyən siyasi böhran və iqtisadi tənəzzül əhalinin həyat səviyyəsinin aşağı düşməsinə səbəb olmuş, nəticədə, Azərbaycanda yoxsulluq səviyyəsi yüksəlmişdir. Lakin 1993-cü ildə ümummilli lider Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra Azərbaycan yenidən 1969-cu ildən başlanan intibah və tərəqqi yoluna qədəm qoymuş, əhalinin sosial problemlərinin həlli, başlıcası isə yoxsulluq səviyyəsinin azaldılması sahəsində ardıcıl tədbirlər görülmüş, dövlət proqramları qəbul olunaraq icra edilmişdir. Ulu öndərin 2003-cü il 20 fevral tarixli Fərmanı ilə təsdiq olunmuş "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı" bu sahədə görülən işlərin miqyasını daha da artırmışdır.

Əhalinin sosial müdafiəsinin gücləndirilməsi, ölkədə yoxsulluğun tamamilə aradan qaldırılması ölkə Prezidenti cənab İlham Əliyevin də daim diqqət mərkəzindədir. Dövlət başçısının 2008-ci il 15 sentyabr tarixli Sərəncamı ilə qəbul olunmuş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı", eləcə də 2004-2008 və 2009-2013-cü illəri əhatə edən regionların sosial-iqtisadi inkişafı dövlət proqramları əhalinin həyat səviyyəsinin yaxşılaşmasına, yoxsulluq səviyyəsinin azaldılmasına səbəb olmuşdur.

Naxçıvan Muxtar Respublikası bu gün sosial-iqtisadi inkişafının yeni mərhələsini yaşayır. Son illər ərzində həyata keçirilən islahatlar iqtisadiyyatın dinamik inkişafını, makroiqtisadi göstəricilərin davamlı artımını, əhalinin rifah halının yaxşılaşmasını, aztəminatlı, xüsusi qayğıya ehtiyacı olan təbəqənin sosial müdafiəsinin gücləndirilməsini təmin etmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2007-ci il 30 may tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasında Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı (2007-2010-cu illər)" təsdiq edilmişdir. Proqramda muxtar respublikada vətəndaşların məşğulluğunun təmin olunması, əmək ehtiyatlarının keyfiyyətcə yaxşılaşdırılması, onun rəqabət gücünün artırılması öz əksini tapmış, bu istiqamətdə mühüm tədbirlər həyata keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 9 iyun tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər)", 2009-cu ildə isə təsdiq edilən "Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" muxtar respublikanın sürətli inkişafına, infrastrukturun genişlənməsinə, yeni istehsal sahələrinin yaradılmasına, iş yerlərinin açılmasına və əhalinin məşğulluğunun təmin olunmasına səbəb olmuşdur. Nəticədə, son 10 ildə muxtar respublikanın iqtisadiyyatı 12,5 dəfə, o cümlədən sənaye 45,4 dəfə, kənd təsərrüfatı 4,5 dəfə, tikinti sektoru 14,2 dəfə, nəqliyyat sektorunda gəlirlər üzrə 3,3 dəfə, informasiya və rabitə sektoru 9,7 dəfə, əhalinin sosial müdafiəsi və təminatına çəkilən xərclər 55,1 dəfə artmışdır. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində sənaye, kənd təsərrüfatı, sahibkarlıq fəaliyyəti genişlənmiş, yeni müəssisələr yaradılmış, infrastruktur, kommunal xidmətlər yaxşılaşmış, sosial xidmətlərin həcmi yüksəlmişdir. İnsan amilini əsas tutan sosialyönümlü iqtisadi siyasət nəticəsində əhalinin gəlirləri artmış və maddi vəziyyəti əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. Son 10 il ərzində 58 min 460 yeni iş yeri yaradılmış, sahibkarlıq subyektlərinin sayı 2 dəfə artmış, nəticədə, iqtisadi fəal əhalinin sayı 24,7 faiz, məşğul əhalinin sayı 30,1 faiz, əhalinin gəlirləri 9,5 dəfə, əməkhaqqı 9,5 dəfə artmış, işsizliyin səviyyəsi sıfra enmişdir.

Muxtar respublikada hər il kompleks məşğulluq tədbirləri, o cümlədən əmək yarmarkaları keçirilir. Həmçinin əmək bazarında ixtisaslı kadrlara olan tələbatın ödənilməsi, işsiz və işaxtaran vətəndaşların müxtəlif peşələrə yiyələnməsi, eləcə də onların məşğulluğunun təmin edilməsi məqsədilə peşə kursları təşkil olunur.

Əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər, pensiya, təqaüd və müavinətlərin məbləğinin mütəmadi olaraq artırılması, yeni təqaüdlərin təsis edilməsi sosial müdafiəyə ehtiyacı olan insanlara göstərilən dövlət qayğısının təzahürüdür. Azərbaycan Respublikası Prezidentinin müvafiq fərman və sərəncamları ilə pensiyaların məbləği 8,6 dəfə, ehtiyac meyarının və sosial müavinətlərin məbləği 3 dəfə artırılmışdır.

Muxtar respublikada aztəminatlı, sosial müdafiəyə ehtiyacı olan şəxslərin hüquqlarının qorunması, yaşayışlarının yaxşılaşdırılması, onların maddi və mənəvi tələbatlarının ödənilməsi həyata keçirilən sosial siyasətin əsas istiqamətini təşkil edir. Haliyədə muxtar respublikada bu kateqoriyadan olan şəxslərə müxtəlif növ sosial xidmətlər göstərilir. Belə ki, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda, Çernobıl Atom Elektrik Stansiyasında baş verən qəzanın ləğvində iştirak edərək sağlamlığını itirənlərə və 1941-1945-ci illər müharibəsi əlillərinə, ümumilikdə, 297 minik avtomobili verilmiş, 147 əlil və şəhid ailəsi mənzil və fərdi yaşayış evləri ilə, 3068 məhdud fiziki imkanlı şəxs müxtəlif texniki reabilitasiya vasitələri, həmçinin bu kateqoriyadan olan 1576 şəxs isə sanatoriya və pansionatlarda müalicə və istirahətləri üçün göndərişlərlə təmin olunmuşlar. Sosial təminat sahəsində aparılan islahatların davamı olaraq qəbul edilən "Ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq, aztəminatlı ailələrin maddi-rifah halını yaxşılaşdırmaq məqsədi ilə aylıq gəlirləri ehtiyac meyarından aşağı olan ailələrə ünvanlı dövlət sosial yardımı ödənilir.

Muxtar respublikada məşğulluq səviyyəsinin yüksəldilməsi infrastrukturun yenilənməsi, sahibkarlıq fəaliyyətinin daha da sürətlənməsi, kənd təsərrüfatının inkişafı nəticəsində iqtisadiyyatın davamlı yüksəlişi təmin olunmuş və yoxsulluq səviyyəsi kəskin azalmışdır. Dövlət büdcəsindən sosial sahələrə ayrılan maliyyə vəsaitlərinin həcminin artırılması, sosial infrastrukturun inkişafı bundan sonra da əhalinin həyat səviyyəsinin davamlı olaraq yüksəlməsinə və yoxsulluq səviyyəsinin minimum həddə qalmasına zəmin yaradacaqdır.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti

Məmməd Araz – 80

Məndən ötdü, qardaşıma dəydi

Ey daşlaşan, torpaqlaşan ulu babam,
Bu günümdən dünənimə uzaqlaşan
ulu babam,
Küləkləşən, dumanlaşan ruhunla sən
Ayağa dur, səninləyəm!
Səs getməyən, əl yetməyən
Qədim tarix dərəsindən
Səs ver mənim səsimə sən:
Sənə gələn, səndən ötən nəydi belə?
Səndən ötüb qardaşına dəydi belə?!
Bununlamı neçə dəfə
Ata-oğul, qardaş hissi haçalandı,
Bir şəhərin
Beş qardaşın xanlığına parçalandı?!
O zamanmı bitdi bizim dilimizin "sənin",
"mənim" qabarı da?
O zamanmı bitdi bizim dilimizin
"Haralısan" damarı da?..
Səninləyəm, ulu babam!
Bu məsəli kimdi yazan?
Hansı soysuz ata idi,
Ataların imzasını
Çəkib ona möhür basan?!

Adınızı dastanlardan oğrayaram,
Ruhunuzu qıyma-qıyma doğrayaram,
Qara Çoban,
Dəli Domrul,
Ey Xan Eyvaz,
Giziroğlu Mustafabəy.
Əgər ki siz
Bu məsələ qol çəkdiniz!
Sonra, sonra hansınızsa
Xalqa gələn bir qəzadan
Öz başını yana əydi,
O qəza bir topa dönüb
Səttarxanın tifaqına yaman dəydi.
Məndən ötdü!..
Məndən ötdü!..
Sevincə bax, qeyrətə bax!
Bunu yazan xilqətə bax!
Məndən ötdü...
Qulağımdan getmir bu səs,
Zərbələri qardaşına,
Sirdaşına ötürən kəs
Elə bil ki bax bu gecə
Qulağımın dibindəcə
Xətainin süqutuna qəh-qəh çəkdi.
Sonra, sonra
Səhərəcən başına yüz qədəh çəkdi.
O qəh-qəhin dalğasından,
O məstliyin baş fırladan
Havasından qopan daşdı –
Azərbaycan torpağında
Araz boyda şırım açdı.
"Məndən ötdü"...
Bunu dedi Şəki xanı,
Bunu dedi Bakı xanı,
Bunu dedi İbrahim xan,
Fətəli xan, Kəlbəli xan...
"Qəza ötsün məndən", – dedi,
Ötən kimi "mən-mən"dedi.
"Mən-mən" dedi bir
ölkədə nə qədər xan.
Onlar"mən-mən"
deyən yerdə sən olmadın,
Azərbaycan!
Səni səndən alıb belə
Yüz illərlə uyutdular.
Səni səndə ələdilər,
Səni səndə üyütdülər.
Dibək oldun öz duzunla, öz daşınla.
Ögey oldun doğma, əkiz qardaşınla.
"Məndən ötdü" deyənlərin qeyrətindən.
Namusunu yeyənlərin qeyrətindən!
Məndən ötdü...
Məndən ötdü!
Ey daşlaşan, torpaqlaşan ulu babam!
Bu günümdən dünənimə uzaqlaşan
ulu babam!
Ayağa dur!
Dəfn etdiyim məsələnin başdaşına
bir təəssüf xatirəsi yazıb yondur:
"Səndən ötən mənə dəydi,
Məndən ötən sənə dəydi,
Səndən, məndən ötən zərbə,
Vətən, Vətən, sənə dəydi..."

1967

ŞƏRQqapısı

Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: *AZ-7000,*
Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: **Elnur Kəlbizadə**

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 3940. Sifariş № 955